**04 avqust 2025-ci il Qərarı ilə "TƏSDİQ EDİLMİŞDİR"**
**"PAŞA Malls" MMC-nin direktoru**
**Yaman Sahin**

M.Y

**"GƏNCƏ MALL-DA XƏRCLƏ VƏ QAZAN" TİRAJLI STİMULLAŞDIRICI LOTEREYASININ ŞƏRT VƏ QAYDALARI**

## 1. Ümumi məlumat

1.1. Lotereya təşkilatçısı: **"PAŞA Malls" MMC**
1.2. Lotereya təşkilatçısının hüquqi ünvanı: Neftçilər pr. 153, Bakı, Azərbaycan, AZ1010

1.3. VÖEN: 1405688851
1.4. Lotereyanın adı və forması: "GƏNCƏ MALL-DA XƏRCLƏ VƏ QAZAN": tirajlı stimullaşdırıcı lotereyası (bundan sonra- Lotereya).
1.5. Lotereyanın obyekti: "Gəncə Mall" Ticarət Mərkəzində satılan mal və xidmətlər (spirtli içkilər və tütün məmulatları istisna olmaqla)
1.6. Lotereyanın keçirilmə müddəti: 20 oktyabr 2025 – 23 yanvar 2026

1.7. Lotereya keçirildiyi yer: Gəncə şəh., Heydər Əliyev prospekti 433
1.8. Lotereya bileti kağız formasında olacaq.
1.9. Lotereya ilə bağlı əlaqəli şəxs: Hacıyeva Tehranə Əsəd qızı. Əlaqə nömrəsi: 050 241 43 90

## 2. Lotereyada iştirak hüququnun və lotereya biletinin əldə edilməsi yerləri və qaydası.

2.1. "Gəncə Mall" Ticarət Mərkəzindən **(hədiyyə kartları ilə edilən alış-verişlər istisna olmaqla)** nağd və ya nağdsız şəkildə bir gün ərzində edilən hər 30 AZN-lik alış-verişə görə lotereyada yalnız 1 dəfə iştirak hüququ verən 1 ədəd lotereya bileti veriləcəkdir.

2.2. Yalnız eyni gün ərzində edilən 30 AZN-lik alış-veriş üçün lotereya bileti əldə edilə bilər. Şəxs Gəncə Mall Ticarət Mərkəzində yerləşən hər hansı mağazadan mal və xidmət (restoran xidməti və s.) aldığı zaman aldığı məhsulların içərisində tütün məhsulları və spirtli içkilər olarsa, bu zaman həmin məhsulların qiyməti 30 AZN-lik alış-verişin içərisində nəzərə alınmayacaq.
Misal üçün: Yəni ümumi xidmət və ya mal 45 AZN təşkil etsə, spirtli içki və ya tütün məhsulu 17 AZN təşkil etsə = 28 AZN bu zaman lotereya biletinin əldə edilməsi üçün əlavə 2 AZN-lik alış-veriş etmək zərurəti yaranacaqdır.

2.3. İştrikaçı "Gəncə Mall" Ticarət Mərkəzinin müştəri xidmətləri masasına alış-veriş qəbzini və şəxsiyyətini təsdiq edən sənədi təqdim edərək lotereya bileti əldə edəcəkdir.

2.4. İştirakçı tərəfindən təqdim edilən alış-veriş qəbzinə Gəncə Mall Ticarət Mərkəzi tərəfindən "Təsdiqləndi" möhürü vurularaq iştirakçıya geri veriləcək. Möhür vurulmamış qəbzlər etibarlı sayılmır.

2.5. Biletin kəsilən hissəsi lotereya iştirakçısı tərəfindən "Gəncə Mall" Ticarət Mərkəzində yerləşdirilən lototrona lotereya iştirakçısı tərəfindən daxil edilir, digər hissə isə lotereya iştirakçısına qaytarılır. Kəsilən hissədə iştirakçının adı, soyadı, telefon nömrəsi (varsa digər əlaqə vasitələri) və lotereya biletinin nömrəsi qeyd olunacaqdır.

2.6. Yaşı 18-dən aşağı olanlar, "PAŞA Malls" MMC-nin işçiləri və o cümlədən də, onların ailə üzvləri, "Gəncə Mall" Ticarət Mərkəzində yerləşən satış məntəqələrinin sahibləri, onların işçiləri, "Gəncə Mall" Ticarət Mərkəzinin mühafiziçiləri, təmizlik və texniki işçiləri bu tirajlı stimullşadırıcı lotereyada iştirak edə bilməzlər.

2.7. Tirajlı stimullaşdırıcı lotereyanın iştirakçısı 18 yaş və daha yuxarı yaşda Azərbaycan Respublikasının vətəndaşı olmalıdır.

2.8. Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşı olmayan şəxslər bu lotereyada iştirak edə bilməzlər.

2.9. Təşkilatçı tərəfindən lotereya iştirakçısına uduşun ödənilməsi zamanı lotereya iştirakçısının şəxsiyyətini təsdiq edən sənəd və lotereya biletinin uduşlu olması yoxlanılmalıdırAldığı məhsulu geri qaytaran iştirakçı lotereyada iştirak haqqını itirmiş olur və ona verilmiş lotereya bileti etibarsız hesab olunur.

## 3. Uduş fondunun oynanılması qaydası.

3.1 Lotereyanın uduş fondu iki tiraj şəklində oynanılacaq; birinci tiraj 25 noyabr 2025-cü il, saat 15:00-da "Gəncə Mall" Ticarət Mərkəzində keçiriləcək, ikinci və əsas tiraj isə 26 yanvar 2026-ci il, saat 15:00-da eyni ünvanda oynanılacaq.

3.2 Tirajli stimullaşdırıcı lotereyanın nəticələrini elan olunması tədbirində ilk olaraq udulacaq əşyanın adı çəkiləcək və lototrondan çıxan nömrə ilə uyğun lotoreya bileti həmin əşyanı udmuş sayılır.

## 4. Uduşlu lotereya biletlərinin qəbulu və uduşların verilməsi qaydası və müddəti.

4.1 Uduşların verilməsi üçün uduşlu lotereya biletinin, alış-veriş qəbzlərinin möhürlənmiş orijinal versiyası və şəxsiyyət vəsiqələrinin surətinin qəbulu lotereya təşkilatçısı tərəfindən onun yerləşdiyi ünvanda – Gəncə Mall Ticarət Mərkəzində həmin tirajın uduş fondu oynanıldığı tarixdən etibarən 7 iş günü sonra başlayır və 90 (doxsan) iş günü ərzində davam edəcəkdir. Uduşlu lotereya biletləri qəbul olunduqdan sonra, uduşlar 7 iş günü ərzində sahibinə təqdim olunacaqdır.

4.2 Qalib şəxs hədiyyəsini əldə etmək üçün əldə etmiş olduğu möhürlü alış-veriş qəbzini, lotereya biletinin bir hissəsini və şəxsiyyət vəsiqəsini mütləq təqdim etməlidir.

4.3 Loteraya təşkilatçısı ictimaiyyəti məlumatlandırmaq məqsədi ilə qalib gəlmiş lotereya iştirakçısının adı və soyadı haqqında məlumatları istifadə edə bilər.

4.4 Lotereya təşkilatçısı qalibin və ya onu müşayiət edən şəxslərin fərdi məlumatlardan, şəkilləri, adları, videoları və s. məlumatlarından reklam, promosyon məqsədləri üçün və o cümlədən digər məlumatların hər hansı media vasitəsilə, sosial mediada və digər reklam kanalları ilə onlardan yazılı qaydada icazə alındığı təqdirdə istifadə edə bilərlər.

4.5 İştirakçılara uduşların pul ekvivalenti ödənilmir.

4.6 Qaliblər öz uduşlarını digər üçüncü şəxsə ötürü bilməzlər. ƏDV vergisi istisna olmaqla, uduşla bağlı bütün digər vergilər və qanuni öhdəliklər qaliblərə məxsusdur.

4.7 Qaliblər tərəfindən bu şərtlərin 4.1 bəndində qeyd olunmuş müddətdə götürülməmiş uduşlar təşkilatçının sərəncamında qalacaqdır.

## 5. Lotereyanın uduş fondu.

5.1 Lotereyanın uduş fondu aşağıdakı kimi müəyyən edilmişdir:

| | Məhsul | Marka | Say | Məlumat |
|---|---|---|---|---|
| 1. | Avtomobil | DongFeng Shine GS (2024) | 1 | Uzunluq/En/Hündürlük: 4630*1830*1610 mm<br>Baqaj həcmi: 674 L(1809L arxa oturacaqlar qatlanmış)<br>Sürüş rejimləri: Normal/Sport<br>Mühərrik: 1.5T/190 a.g.<br>Fırlanma anı (Nm): 300 Nm<br>Maksimal sürət: 199 km/saat<br>7 düymlük rəqəmsal cihaz paneli<br>10 düymlük sensor ekranlı multimedia sistemi<br>Apple CarPlay/Android Auto dəstəyi<br>Start/Stop düyməsi ilə avtomobilin işə salınması<br>EPS elektrik sükan gücləndiricisi<br>İşıq sensoru/ Yağış sensoru<br>Elektriklə tənzimlənən və qızdırılan yan güzgülər<br>Arxa şüşə qızdırıcısı<br>Günəşdən qoruyucu şüşələr<br>İki sahəli avtomatik iqlim nəzarəti<br>Arxa cərgə üçün hava kanalları<br>Toz filtri<br>LED gündüz işıqları / Arxa işıqları<br>Elektriklə tənzimlənən sürücü oturacağı<br>Arxa oturacaqların 60/40 nisbətində qatlanması<br>Multifunksional və dəri ilə örtülmüş sükan çarxı<br>Sükanın hündürlüyünün və dərinliyinin tənzimlənməsi<br>Kruiz Kontrol<br>Avtomatik dayanma funksiyası<br>Ön və arxa park sensoru /Geri hərəkət kamerası<br>Ön pəncərələrin avtomatik qaldırılması<br>Ön və arxa qoltuqda USB portu<br>Bluetooth bağlantısı<br>Təkərlər: 225/45 R18 Armor Claw Hub<br>Təkər təzyiqi monitorinq sistemi (TPMS)<br>İmmobilizator / Siqnalizasiya sistemi<br>Əyləc sistemi: ön disklər / arxa disklər<br>6 təhlükəsizlik yastığı |
| 2. | Robot tozsoran | Robot Tozsoran Karcher RCV 3 (1.269-620.0) | 2 | Məhsul tipi: Tozsoran (Robot)<br>Çəki: 6.94 kq<br>İdarəetmə növü: Elektron<br>Qablaşdırmaya daxildir: Şarj yuvası<br>Zəmanət: 2 il<br>Başlıqlar: Yan fırçalar<br>Tozyığan növü: Konteyner<br>Rəng: Ağ<br>Təmizləmə növü: Quru və nəm<br>Avtonom iş müddəti: 120 dəqiqə |

| | | | | |
|---|---|---|---|---|
| 3. | Smartfon | iPhone 16 128 GB | 2 | Model: iPhone 16<br>Daxili yaddaş: 128 GB<br>Operativ yaddaş: 8 GB<br>Əsas kamera: 48 MP + 12 MP, ön kamera 12 MP<br>Displey: 6.1" Super Retina XDR OLED, 2556 × 1179 piksel<br>Batareya: 3561 mAh, Li-Ion, 30 Vt sürətli enerji yığma<br>Prosessor: Apple A18, 6 nüvə, 4.04 GHz<br>Əməliyyat sistemi: iOS 18<br>Korpus və qorunma: Alüminium və şüşə, IP68 suya və toza davamlılıq |
| 4. | Planşet | Xiaomi Redmi Pad 2 4/128 GB | 2 | Model: Redmi Pad 2<br>Əməliyyat sistemi: Android 15<br>Prosessor: MediaTek Helio G100 Ultra, 8 nüvə, 2.2 GHz<br>Daxili yaddaş: 128 GB, Operativ yaddaş: 4 GB<br>Əsas kamera: 8 MP, Ön kamera: 5 MP<br>Displey: 11" IPS, 2560 × 1600 piksel<br>Batareya: 9000 mAh, 18 Vt sürətli enerji yığma<br>Korpus: Alüminium, çəkisi 510 qr<br>Əlavə xüsusiyyətlər: USB Type-C və 3.5 mm mini jack girişləri, optik sabitləşmə yoxdur |
| 5. | Qulaqlıq | Samsung Galaxy Buds | 2 | Model: Galaxy Buds Core<br>Qulaqlığın növü: İçlik, tam simsiz (TWS)<br>Batareya həcmi və işləmə müddəti: 500 mAh, musiqi dinləmə müddəti 6 saatadək, danışıq müddəti 6 saatadək, maksimal işləmə müddəti 35 saatadək, enerji yığma müddəti 2 saatadək<br>Əlavə xüsusiyyətlər: Aktiv səs izolyasiyası, mikrofon<br>Çəki: 41.8 qr<br>Komplektasiya: Silikon başlıqlar |
| 6. | Smart saat | HONOR Choice Watch | 2 | Ekran: 1.85" AMOLED<br>Qoşulma: Bluetooth 5.3<br>Əməliyyat sistemi: Proprietary OS (iOS və Android uyğun)<br>Qorunma: IP68 suya və toza davamlılıq<br>Yaddaş: 16 MB<br>Sensorlar: ürək döyüntüsü, qanda oksigen, akselerometr, giroskop, işıq sensoru<br>Batareya: 288 saata qədər işləmə, 1.5 saata qədər enerji toplama<br>Material: Plastik korpus, silikon kəmər (çıxarılan) |
| 7. | Televizor | LG - 50UA75009LA.AMCN | 2 | Ekran: 50" (127 sm), 4K UHD (3840 × 2160)<br>Əməliyyat sistemi: WebOS<br>Smart TV: Var<br>Səs sistemi: AI Sound Pro, 20 Vt, 2 dinamika<br>Qoşulma: Bluetooth, Wi-Fi<br>Səsli idarəetmə: Var<br>Girişlər: HDMI ×3 (2.0), USB ×1 (2.0), RF×2, Ethernet<br>TV tuner: DVB-T2, DVB-C, DVB-S2, CI<br>Ölçülər (altlıqsız): 112.2 × 65.4 × 6.8 sm<br>İstehsal tarixi: 2025<br>Əlavə xüsusiyyətlər: İntellektual səs tanıması, 4K Ultra HD, 4K Super Upscaling, Game Mode, Multi View |
| 8. | Paltaryuya maşın | LG - F2V5HYLYJ.AMBPMER | 2 | Brend: LG<br>Məhsul tipi: Paltaryuyan (Solo)<br>Yükləmə tipi: Öndən, maksimal yükləmə 7 kq<br>Mühərrik tipi: İnverter Direct Drive<br>Enerji sərfiyyatı sinfi: A |

| | | | | |
|---|---|---|---|---|
| | | | | Su sərfiyyatı: 56 lt<br>Yuyulma / sıxılma sinfi: A / B<br>Fırlanma sürəti: 1200 dövr/dəq<br>Səs səviyyəsi: 55 db (yuma), 74 db (sıxılma)<br>Proqramların sayı: 14<br>Əlavə funksiyalar: Disbalansın kontrolu, uşaq kilidi<br>Ölçülər: 85 × 60 × 47 sm |
| 9. | Soyuducu | LG - GR-C342SLBB.DPZQMEA | 2 | Brend: LG<br>Soyuducu növü: Dondurucu yuxarıda<br>Enerji sərfiyyatı sinfi: A+<br>Kompressor tipi: İnverter<br>Toplam həcm: 234 lt<br>Soyuducu kameranın donunun açılması: No Frost<br>Soyuducu kameranın bölmələri: 4+2<br>Dondurucu kameranın donun açılması: No Frost<br>Dondurucu kameranın bölmələri: 2<br>Dondurucu kameranın yerləşdirilməsi: Üst<br>Qapıda qutular: 3<br>Buz hazırlayan: Var<br>Daxili işıqlandırma: Var<br>Ölçülər (hündürlüyü / eni / dərinliyi): 147 × 58 × 66 sm |
| 10. | Pul mükafatı | 1000 AZN dəyərində | 10 | |

5.2 İlk tirajda və ikinci, yəni final tirajda eyni uduşlar oynanılacaq, lakin ikinci tirajda iştirakçılar üçün əlavə olaraq bir avtomobil hədiyyə kimi təqdim olunacaq.

5.3 Lotereyada 10 (on) iştirakçıya hər biri 1000 (min) AZN olmaqla pul mükafatı təqdim ediləcəkdir. Hər iki tirajın hər birində 5 nəfər, toplam 10 iştirakçı qalib elan olunacaqdır. Pul mükafatı qalibin bank hesabına tam məbləğdə – 1000 (min) AZN – köçürülməklə ödəniləcəkdir. Mükafatın təqdim olunması zamanı qalibdən əlavə hər hansı komissiya və ya ödəniş tutulmayacaqdır.

## 6. Lotereya bileti haqqında məlumat

**6.1** Lotereya biletləri 300.000 ədəd təşkil edəcəkdir. Lotereya biletləri 000 001 – 300 000-dək nömrələnmişdir.

## 7. Lotereyanın şərtləri və nəticələri ilə məlumatlandırma qaydası.

7.1 Tirajlı stimullaşdırıcı lotereyada uduşlu biletləri haqqında ətraflı məlumat "Facebook- GANJA MALL", "İnstagram-mallganja_official" sosial şəbəkələrində və www.ganjamall.az rəsmi veb saytında qeyd ediləcəkdir.

Qaydalar və şərtlər barədə ətraflı: ganjamall.az
Əlaqə nömrəsi: (+994) 22 267 08 21